# Azərbaycan Milli Xalça Muzeyində "Min naxış bir çul üstündə" sərgisi açılıb



**Azərbaycan Milli Xalça Muzeyində "Min naxış bir çul üstündə" sərgisi açılıb.**

Muzeydən bildirilib ki, sərgidə muzeyin kolleksiyasında yer alan, ölkəmizin müxtəlif guşələrində - Bakı, Şirvan, Qazax və Qarabağda toxunmuş bir-birindən gözəl, zəngin naxışlı 25 çul nümunəsi təqdim edilir.

Çul müxtəlif minik və ya yük daşıyan ev heyvanlarının (at, dəvə, eşşək, öküz və s.) belini örtmək, bəzən də onları bəzəmək üçün toxunan örtükdür. Azərbaycanda çul əsasən xovlu və xovsuz xalçatoxuma texnikası, bəzən də tikmə (güləbətin, təkəlduz, cülmə), qurama üsulları ilə istehsal olunurdu. Mərasimlərdə, el bayramlarında at və dəvələrin əzəmətli, yaraşıqlı görünməsi üçün üstlərinə çul salınırdı. Qışda isə çuldan heyvanları soyuqdan qorumaq üçün istifadə edilirdi. Cənubi Azərbaycanın Maku şəhərindən tapılmış eradan əvvəl II minilliyə aid gildən düzəldilmiş at fiqurunun üzərindəki gül-çiçək bəzəkli çul rəsmi, Urmiya gölü yaxınlığındakı Həsənli təpəsində aşkarlanmış eradan əvvəl I minilliyə aid qızıl camın səthindəki aslan təsvirinin üstündə çulun olması bu xalça məmulatının tarixinin qədimliyini sübut edir. Təbriz miniatür sənətinin tanınmış nümayəndələrinin yaratdıqları əsərlərdə də zəngin naxışlı çul təsvirlərinə rast gəlinir.

Orta əsrlərdə hökmdar və saray əyanlarının atları üçün xüsusi sifarişlə toxunan çullar yun, rəngbərəng ipək, bəzən də qızıl, gümüş saplardan hazırlanır, daş-qaşla bəzədilirdi.

"Min naxış bir çul üstündə" sərgisi aprelin 1-dək davam edəcək.

Azərbaycan.- 2025.- 5 mart (№49).- S.11.